

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 84 (21.494)

7 may 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 6 may tarixli Sərəncamı ilə səhnə fəaliyyəti ilə bağlı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilmişdir. Mükafat alanlar arasında Naxçıvan Muxtar Respublikasının incəsənət xadimləri də vardır.

Babayev İlham Hüseyn oğlu
Hüseynquliyeva Zəlihə Hüseyn qızı
Qazıyev Tağı Məhəmməd oğlu
Qurbanov Qurban Pənah oğlu
Məmmədzadə Nəsimi Əyyub oğlu
Nağıyev Arif Əli oğlu
Namazova Xalubər Əyyub qızı
Rəhimov Zəfər Yaqub oğlu
Seyidov Tofiq Həbib oğlu

## Naxçıvanda şəhid ailələrinə mənzillər təqdim olunmuşdur





Mayın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində bu ilin aprel ayında Füzuli və Tərtər rayonlarında döyüşlərdə şəhid olan mayor Rasim Məmmədov və leytenant Qabil Orucəliyevin ailələrinə yeni mənzillər təqdim olunmuşdur.

Əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən şəhid ailələrinin mənzillərlə təmin olunduğunu bildirərək demişdir: Şəhidlərimizin vətən qarşısındakı xidmətləri dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirildi, Azərbaycana dost olan ölkələr şəhidlərimizə ehtiramlarını bildirdilər. Bu gün şəhidlərin vətən qarşısındakı şücaətinin nəticəsi olaraq onların ailələrinə mənzillər təqdim olunur. Şəhidlərimizin qəhrəmanlıqları bundan sonra da unudulmayacaq, şəhid ailələri, şəhid övladları daim dövlətimizin himayəsi altında yaşayacaqlar.

"Şəhid ailələri vətən uğrunda canlarını qurban verən igid oğullarının itkisini ailələrinin faciəsi kimi deyil, xalqın qəhrəmanlıq nümunəsi kimi qarşıladılar", – deyən Ali Məclisin Sədri göstərdikləri səbir və dözümə görə şəhid ailələrinə təşəkkür etmişdir.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini Azərbaycan Respublikasının Prezidentinin adından şəhid ailələrinə təqdim etmiş və onlara yeni mənzillərdə firavanlıq arzulamışdır.

Şəhid Qabil Orucəliyevin ailəsi adından danışan Məhəmmədəli Kərimov ölkəmizdə şəhid ailələrinin hərtərəfli qayğı ilə əhatə olunduğunu bildirərək demişdir: Fəxr edirik ki, qüdrətli və müstəqil Azərbaycanda yaşayırıq. Biz ölkəmizdə həyata keçirilən siyasi xətti dəstəkləyirik. Əminik ki, Ali Baş Komandanın rəhbərliyi altında ordumuz torpaqlarımızı işğaldan azad edəcəkdir. Şəhid Qabil Orucəliyevin qardaşı İsa Orucəliyev azyaşlıdır. Lakin buna baxmayaraq o, and içib ki, şəhidlik zirvəsinə yüksələn qəhrəman vətən oğullarının qanını yerdə qoymayacaqdır. Müstəqil Azərbaycanla, onun müzəffər ordusu və vətənpərvər gəncləri ilə qürur duyur, göstərilən diqqətə görə şəhid ailələri adından Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıq edirik.

Sonda Ali Məclisin Sədri şəhid ailələri ilə xatirə şəkli çəkdirmişdir.

Şəhid ailələrinə verilən 2 və 3 otaqlı mənzillər Naxçıvan şəhərindəki yeni yaşayış kompleksində yerləşir. Tam təmir olunan mənzillərə bütün mebel avadanlıqları və məişət əşyaları qoyulmuş, lazımi kommunal-məişət şəraiti yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda elmi-praktik konfrans

***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda elmi-praktik konfrans keçirib.***

Konfransda "Ümummilli lider Heydər Əliyev Azərbaycan ordusunun qurucusudur" mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli müstəqil respublikamızda aparılan ordu quruculuğu prosesindən söhbət açıb. Bildirib ki, Azərbaycan dövlətinin xilaskarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev bütün həyatı boyu öz xalqına xidmət göstərməyi ömrünün başlıca qayəsi hesab edib, Vətənə, xalqa, dövlətə sədaqətlə və yorulmaz xidmətin müstəsna nümunəsini yaradıb. O, Azərbaycana rəhbərliyinin hər iki dövründə özünün mükəmməl dövlətçilik konsepsiyasını həyata keçirərkən milli hərbçi kadr potensialının yaradılmasına, milli ordu quruculuğuna xüsusi diqqət yetirib.

Qeyd olunub ki, ulu öndər hakimiyyətə gəldiyi ilk günlərdən gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsinə böyük əhəmiyyət verdiyini sübut edib. Belə ki, 1969-cu il oktyabrın 21-də gənclərin hərbi-vətənpərvərlik hisslərinin yüksəldilməsi, hərbi sahəyə marağının artırılması məsələsini geniş müzakirəyə çıxararaq Azərbaycan KP MK-da "Gənc hərbi vətənpərvərlər məktəbinin yaradılması haqqında" Qərar qəbul edib. Ulu öndərimiz ali hərbi məktəblər üçün müdavim hazırlamaq məqsədilə bütün siyasi manеələri dəf edərək 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail olub. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il martın 13-də imzaladığı Sərəncam ilə Naxçıvan Muxtar Respublikasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialı açılıb, Prezident İlham Əliyevin 2004-cü il fevralın 27-də imzaladığı Sərəncam ilə filialın əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb. 1970-80-ci illərdə keçmiş SSRİ-nin ali hərbi məktəblərində 2 mindən çox azərbaycanlı zabit hazırlanıb, SSRİ müdafiə sənayesinin Azərbaycanda 11 böyük zavodu tikilib. Hazırda həmin müəssisələr modernləşdirilərək Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində ölkəmizin hərbi potensialının və qüdrətinin artırılmasına öz töhfəsini verir.

"Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra da məhz ulu öndər vahid nizami Silahlı Qüvvələrin yaradılması və daha da möhkəmlənməsi, ordumuz üçün hərbi kadrlar hazırlayan hərbi təhsil sisteminin modernləşməsi üçün strateji xarakterli tədbirlər həyata keçirdi", – deyən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri vurğulayıb ki, dahi şəxsiyyətin 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, 2001-ci il avqustun 20-də respublikamızda fəaliyyət göstərən hərbi məktəblərin statusunun artırılması və nəhayət, 2002-ci il avqustun 17-də Silahlı Qüvvələrə Yardım Fondunun yaradılması haqqında imzaladığı fərmanlar, heç şübhəsiz, bu istiqamətdə əsaslı dönüş yaradıb. Qısa müddət ərzində ordu quruculuğunun qanunvericilik bazası yaradılıb, "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Müdafiə haqqında", "Hərbi qulluqçuların statusu haqqında" və bunun kimi digər əhəmiyyətli qanunlar qəbul edilib. Azərbaycanda hərbi quruculuq bu gün də yüksələn xətlə inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev dövlət başçısı postunda fəaliyyətə başladığı ilk gündən ordu quruculuğunu prioritet elan edib. Azərbaycan dünyada yalnız siyasi və iqtisadi baxımdan deyil, hərbi cəhətdən də güclü dövlətlərdən birinə çevrilib. 2008-ci, 2011-ci və 2013-cü illərdə paytaxt Bakıda keçirilən hərbi paradlar, habelə 2016-cı il aprelin 2-5-də ermənilərin hərbi təxribatına Milli Ordumuzun qəhrəmanlıqla cavab verərək düşməni sarsıdıcı məğlubiyyətə uğratması Azərbaycan Silahlı Qüvvələrinin ölkəmizin ərazi bütövlüyünün bərpasına, torpaqlarımızın işğalçılardan azad edilməsinə hazır olmasının təsdiqidir.



Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına tam orta məktəb ərazi ilk təşkilatının sədri Könül Mirzəyeva "Ulu öndər Heydər Əliyevin siyasi təlimində hərbi-vətənpərvərlik" mövzusunda çıxış edərək bildirib ki, ümummilli liderin milli vətənpərvərlik ideyalarında ən önəmli yerlərdən birini müasir nəsli hərbi-vətənpərvərlik ruhunda tərbiyə etmək məsələsi tutur. Ümummilli lider Heydər Əliyev deyirdi ki, ***"Hamımızın ümumi vəzifəsi xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".***

"Ümummilli lider Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü məsələsi" mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası "Naxçıvan" Universiteti ərazi ilk təşkilatının sədri Mehman Şabanov qeyd edib ki, ulu öndərimiz bütün dövrlərdə Azərbaycanın ərazi bütövlüyünün qorunmasına xüsusi əhəmiyyət verib, torpaqlarımızın erməni işğalından azad olunması istiqamətində var qüvvəsi ilə çalışıb. Hazırda bu siyasət Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Yeni Azərbaycan Partiyası fəalı Rəhmiyyə Zeynalova "Ulu öndər Heydər Əliyev və vətənpərvərlik fenomeni" mövzusunda çıxış edib.

Elmi-praktik konfransın məruzələri mövzuya dair slaydlarla müşayiət olunub.

Sonda konfrans iştirakçıları "Heydər Əliyev və Azərbaycan ordusu" filminə baxıblar.

**✍ Rauf ƏLİYEV**

## Ulu öndər Heydər Əliyev və Azərbaycanın müstəqilliyi



*Mayın 6-da “Naxçıvan” Universitetində Heydər Əliyev lektoriyasının “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” mövzusunda məşğələsi keçirilib.*

Tədbiri giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açıb. Bildirilib ki, dahi şəxsiyyət bütün mənalı ömrünü Azərbaycanın müstəqilliyinə və hərtərəfli inkişafına həsr edib. Ölkəmizin gələcəyi naminə gördüyü nəhəng işlər Ona öz xalqının qəlbində əbədi yaşamaq hüququ qazandırıb. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərində parçalanmaq və məhv olmaq təhlükəsi ilə üz-üzə qalmış Azərbaycanda müstəqil dövlət quruculuğu sahəsində fəaliyyəti ölçüyəgəlməzdir. Görkəmli dövlət xadiminin fədakarlığı və uzaqgörən siyasəti sayəsində həmin dövrdə mövcud olan problemlər aradan qaldırılıb və ölkəmizin gələcək inkişafı üçün hərtərəfli zəmin yaradılıb. Bu gün Azərbaycan məhz ulu öndərin əsasını qoyduğu siyasətin uğurla davam etdirilməsi nəticəsində regionun aparıcı dövlətinə çevrilib, dünya dövlətləri sırasında öz layiqli yerini tutub.

“Naxçıvan” Universitetinin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” mövzusunda məruzə edərək bildirib ki, ölkəmizdə müstəqil dövlət quruculuğuna aparan yol ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründən başlanıb. Görkəmli dövlət xadiminin çoxşaxəli fəaliyyəti nəticəsində həmin dövrdən Azərbaycanda milli özünüdərkin, milli özünəqayıdışın əsasları qoyulub. Ümummilli lider xalqımızın müasir tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir. Dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri Ona böyük ümumxalq məhəbbəti qazandırıb.

Qeyd olunub ki, ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-cü ildən 2003-cü ilə qədər olan onillik dövr ölkəmizin həyatında çox zəruri olan ictimai-siyasi sabitliyin yaradılması, dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması kimi xarakterizə olunur. 1994-cü ildən etibarən ölkəmizdə iqtisadi inkişafın əsas prinsipləri formalaşdırılıb, Azərbaycanın həyata keçirdiyi böyük layihələr Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayıb. Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsi Azərbaycanı bütün dünyada müstəqil, sürətlə inkişaf edən nümunəvi ölkəyə çevirib.

*Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə də Heydər Əliyev lektoriyasının “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” mövzusunda məşğələsi keçirilib.*

Əvvəlcə tədbir iştirakçıları ulu öndərimizin məktəbin ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyublar.

Məktəbin iclas zalında keçirilən tədbiri giriş sözü ilə təhsil ocağının direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Namiq Məmmədov açıb. Bildirilib ki, ulu öndər Heydər Əliyevin zəngin siyasi fəaliyyəti və şərəfli ömür yolu tükənməyən bir xəzinədir. Onun qurduğu, dinamik inkişaf yoluna çıxardığı müstəqil Azərbaycanın taleyi hər bir azərbaycanlının taleyidir. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaradıb, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirib, çağdaş tariximizdə əbədiyaşarlıq qazanıb.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” mövzusunda məruzə edərək bildirib ki, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə ölkəni bütün sahələr üzrə müstəqillik üçün hazırlaması 90-cı illərdə müstəqil dövlət quruculuğunda bir baza, zəmin rolunu oynayıb və bu zəmin üzərində müstəqil Azərbaycan dövləti yaradılıb. Ümummilli liderimiz Heydər Əliyev respublikamıza rəhbərliyinin ikinci dövründə isə Vətənimizi fəlakətlərdən, ölkəmizi parçalanmaq, müstəqilliyimizi itirilmək təhlükəsindən xilas edib.



Bildirilib ki, xalqımızın böyük oğlu Heydər Əliyevin başladığı işləri, əsasını qoyduğu daxili və xarici siyasəti ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Bu siyasət Azərbaycanın iqtisadi qüdrətinin artırılmasına, regionların sosial-iqtisadi inkişafına, yeni iş yerlərinin yaradılmasına, əhalinin rifah halının yüksəldilməsinə yönəldilmiş siyasətdir. Bu prosesləri ölkəmizin ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızın timsalında daha genişliyi ilə müşahidə etmək mümkündür.

Dahi rəhbərin quruculuq xəttinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikası da inkişafının yeni mərhələsinə qədəm qoyub. Həyata keçirilən iqtisadi islahatlar nəticəsində qısa tarixi dövr ərzində regionda makroiqtisadi sabitlik yaranıb, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Tədbirdə məktəbin müəllimlərindən Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Gülşən Fətullayeva, Könül Məmmədova çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, ümummilli liderimiz Heydər Əliyevin çətin, məsuliyyətli, şərəfli və mənalı ömür yolu, zəngin ictimai-siyasi fəaliyyəti müstəqil Azərbaycan bütün vətəndaşları üçün əsl həyat məktəbi, Vətənə, xalqa və dövlətçilik ideallarına sədaqət və məhəbbətin parlaq nümunəsidir.

Sonra ümummilli liderin həyat və fəaliyyətini əks etdirən slayd nümayiş etdirilib, Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş gənc müəllimlərə üzvlük vəsiqələri təqdim olunub.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Dövlət Universitetində beynəlxalq elmi-praktik konfrans keçirilib



*Naxçıvan Dövlət Universitetində “Müasir arıçılıq: nəzəriyyə və praktika” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.*

Konfransda universitetin müəllim və tələbələri ilə yanaşı, muxtar respublikanın müvafiq dövlət orqanlarının nümayəndələri, ölkəmizin digər ali təhsil ocaqlarından, həmçinin Türkiyənin İğdır Universitetindən dəvət olunan alimlər, arıçı sahibkarlar iştirak ediblər.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov beynəlxalq elmi-praktik konfransı giriş sözü ilə açaraq Azərbaycanda qədim tarixə malik arıçılığın əsas aqrar sahələrdən biri olduğunu bildirib. Qeyd olunub ki, muxtar respublikada bu sahə uzun illərdir, inkişaf etdirilir və zəngin təcrübə qazanılıb.

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev regionda arıçılığın inkişafından və bu sahəyə göstərilən dövlət qayğısından danışıb. Nazir bildirib ki, Naxçıvan Muxtar Respublikasında arı ailələrinin artırılması, eləcə də məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Bu sahənin inkişaf etdirilməsi üçün son beş ildə banklar tərəfindən arıçılıqla məşğul olan sahibkarlara 2 milyon 313 min manat həcmində kreditlər verilib. Bütövlükdə, 2000-2015-ci illər ərzində dövlətin maliyyə dəstəyi ilə arıçılıqla bağlı 103 layihə həyata keçirilib, Sahibkarlığa Kömək Fondunun güzəştli kreditləri hesabına 16000-dən artıq arı ailəsi alınıb. Elşad Əliyev qeyd edib ki, 2016-cı il 1 yanvar tarixinə arı ailələrinin sayı 70 min 396-ya çatdırılaraq bir il öncəki göstəricini 1,4 faiz üstələyib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ekologiya kafedrasının professoru Rauf Sultanov “Naxçıvan Muxtar Respublikasında arıçılığın yetişdirmə istiqamətində inkişaf perspektivləri” mövzusundakı məruzəsində bildirib ki, muxtar respublika Azərbaycanın yeganə bölgəsidir ki, burada bütün sahələrdə olduğu kimi, arıçılığın da inkişafı ön plana çəkilir, eyni zamanda bölgənin əlverişli iqlimi arıçılığın inkişaf etdirilməsinə böyük təsir göstərir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov “Arı xəstəlikləri ilə mübarizə tədbirləri” mövzusundakı məruzəsində arıçılığın gəlirli sahəyə çevrilməsi üçün arı ailələrinin bəslənməsi, çoxaldılması, məhsuldarlığın artırılması məqsədilə arı xəstəliklərinin vaxtında aşkarlanması, yaranma səbəblərinin aydınlaşdırılması və onlara qarşı mübarizə tədbirlərindən bəhs edib.

Naxçıvan Dövlət Universitetinin Təməl tibb fənləri kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov “Arıçılıqda mövsümi işlər” haqqında məruzə edib. Bildirib ki, respublikamızda arı xəstəlikləri haqqında bir neçə ədəbiyyat nəşr olunsa da, arı xəstəliklərinin aşkar edilməsi, onlara qarşı mübarizə vasitələrinin daim yenilənməsi, profilaktik tədbirlərin aparılması yeni elmi ədəbiyyatların yazılmasını və arıçıların məlumatlandırılmasını tələb edir.

Konfransda iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib, təkliflər dinlənilib, bu sahədə olan problemlərin aradan qaldırılması yolları müzakirə olunub.

Beynəlxalq konfransda arıçılığa aid Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin hazırladığı film, eyni zamanda universitet əməkdaşlarının arıçılıq sahəsinə aid kitablarından ibarət sərgisi nümayiş etdirilib.

Beynəlxalq konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rafael Babayev iştirak edib.

Konfrans iştirakçıları Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Dırnıs, Culfa rayonunun Gülüstan kəndlərində şəxsi arıçılıq təsərrüfatlarına baxıb, arıçılıq məhsullarının emalı prosesi ilə tanış olublar.

**Mina QASIMOVA**

*Naxçıvan Müəllimlər İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda respublika konfransı keçirilib.*

## Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi

AMEA Naxçıvan Bölməsinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun nümayəndələrinin və muxtar respublikanın orta məktəblərində çalışan qabaqcıl müəllimlərin iştirak etdikləri konfransın plenar iclasını institutun rektoru, professor Oruc Həsənli açıb. O bildirib ki, Azərbaycan təhsilinin inkişafı, dünya təhsilinə inteqrasiyası görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ölkəmizə rəhbərliyinin hər iki dövründə təhsilin müasir tələblər səviyyəsində qurulmasına böyük önəm verib, bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirib.

Vurğulanıb ki, “Təhsil millətin gələcəyidir”, – deyən görkəmli dövlət xadimi təhsildə yeni uğurlar qazanmaq üçün həmişə müasir metodların, yeni texnologiyaların, dünya təcrübəsinin tətbiqini diqqətdə saxlamağı tövsiyə edirdi. Odur ki bu gün Azərbaycan təhsilində əldə olunmuş nailiyyətlərə görə xalqımız məhz ümummilli lider Heydər Əliyevə borcludur.

Rektor diqqətə çatdırıb ki, təhsil insanlara texnologiyaları çevik mənimsəmək və ömürboyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Ona görə də müasir tələblərə cavab verən dərs haqqında düşünən müəllim öyrənənləri elə zəruri biliklə təmin etməlidir ki, hər bir fərd sərbəst olaraq qloballaşan dünyamızda informasiya cəmiyyətinin fəal üzvü olmaq üçün texnologiyaları çevik mənimsəmiş olsun. Tədrisdə pedaqoji texnologiya təlim prosesinə yeni baxışdır. Müasir pedaqoji texnologiya tədris prosesinin ənənəvi təlimdən fərqli olaraq yüksək səviyyədə idarə olunmasını təmin edir. Praktik planda pedaqoji texnologiya öyrədənin hər hansı bir texnoloji cəhətdən hazırlanmış metodlar və priyomlar sistemini, eləcə də tərbiyə işinin metodikasını və metodlarını əks etdirir.

Hər bir istiqamət üzrə texnoloji mahiyyətin anlayış baxımından şərhinə ehtiyac vardır. Təcrübə göstərir ki, müəllim hər hansı mövzunu tədris edərkən pedaqoji texnologiyaların tətbiqində çətinliklərlə üzləşir. Bunun nəticəsi olaraq öyrənənlərin təlim məqsədlərinə yiyələnməyi təmin olunmur. Tədris prosesində bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün həyata keçirilən bütün zəruri əməliyyatlar təlim texnologiyasına daxildir. Yaranan münasibətlərin (nisbi, sabit və müntəzəm olaraq) məqsədyönlü formalaşdırılması üçün aparılan əməliyyatların məcmusu tərbiyə prosesinin



texnologiyasıdır.

Oruc Həsənli bildirib ki, inkişaf təlim və tərbiyə texnologiyası ilə sıx əlaqədardır. Əqli bacarıqların formalaşması psixi inkişaf, fiziki bacarıqların formalaşması isə fiziki inkişaf olaraq dəyərləndirilməlidir.

Qeyd olunub ki, tədrisdə müasir pedaqoji texnologiyaların tətbiqi bu məsələlərin həllinə yönəlmiş fəaliyyətin əvvəlcədən layihələşdirilərək planlı və ardıcıl həyata keçirilməsi prosesidir. Müasir pedaqoji texnologiya müəllimin fəaliyyətinin uğurla həyata keçirilməsini təmin edən elmi layihələşdirmədir. Daha dəqiq desək, müasir pedaqoji texnologiya tədrisin həyata keçirilən prinsiplərinin obyektiv qarşılıqlı əlaqədə ardıcıl həyata keçirilməsini reallaşdıran metodikasıdır.

Plenar iclasda Naxçıvan Dövlət Universitetinin professoru Elbəyi Maqsudovun “Azərbaycan dili və vətənimizə məhəbbət hissinin aşılanmasında ulu öndər Heydər Əliyev irsindən istifadə”, Naxçıvan Müəllimlər İnstitutunun müəllimləri, filologiya üzrə fəlsəfə doktoru Fəxriyyə Cəfərovanın “Heydər Əliyev və nitq mədəniyyəti”, pedaqogika üzrə fəlsəfə doktoru Lalə Allahverdiyevanın “İbtidai siniflərdə Heydər Əliyev irsinin öyrənilməsində dərsliklərin rolu”, Culfa rayonunun Saltaq kənd tam orta məktəbinin müəllimi Arif Nuriyevin “Folklorumuzda zəif və ya təhrif olunmuş bəzi nümunələr haqqında” mövzularında məruzələri dinlənilib.

Sonra konfrans öz işini “Heydər Əliyev və müasir təhsil”, “Yeni pedaqoji texnologiyalarda pedaqogika və psixologiyanın rolu”, “Təhsilin müasir tələbləri və tərbiyə məsələləri”, “Fənlərin tədrisi texnologiyaları” adlı bölmə iclasları ilə davam etdirib.

**Muxtar MƏMMƏDOV**

# “Heydər Əliyev kuboku” uğrunda yeniyetmələr arasında sərbəst güləş üzrə muxtar respublika birinciliyinin açılış mərasimi keçirilmişdir

***Mayın 6-da Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika birinciliyinin açılış mərasimi keçirilmişdir.***





Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda sərbəst güləş üzrə muxtar respublika birinciliyinin iştirakçılarını salamlamış və idmançılara uğurlar arzulayaraq demişdir: Azərbaycanda idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin Azərbaycan Respublikasına rəhbərliyi dövründə digər sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılmış, idmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu dövrlərdə idmanla bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi ilə yanaşı, idmanın maddi-texniki bazası da yaxşılaşdırılmış, idman kompleksləri tikilmiş, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmış, onlardan səmərəli istifadə təmin edilmişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, idmana dövlət qayğısı daha da artmış, onun maddi-texniki bazası daha da möhkəmləndirilmişdir. Bunun da nəticəsində müstəqil Azərbaycan həm də bir idman ölkəsi kimi beynəlxalq aləmdə tanınmış və olimpiya hərəkatına qoşulmuşdur.

Qeyd olunmuşdur ki, bu gün Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Muxtar respublikada müasir idman infrastrukturunun, olimpiya-idman komplekslərinin, idman obyektlərinin, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması gənclərin idmana olan marağını artırmış, istedadlı idmançıların yetişməsini təmin etmişdir. Müasir idman infrastrukturunun, eləcə də perspektivli idmançıların mövcudluğu muxtar respublikada beynəlxalq turnirlərin, mötəbər idman yarışlarının keçirilməsinə əlverişli şərait yaratmışdır. Artıq Naxçıvanda digər idman növləri ilə yanaşı, güləş üzrə də beynəlxalq yarışlar və turnirlər təşkil olunur.

“Güləş elə bir idman növüdür ki, qədimdən Azərbaycanda bu idmana maraq yüksək səviyyədə olmuşdur”, – deyən federasiya sədri bildirmişdir ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda güləş idman növünün inkişaf etməsi bir tərəfdən milli irsimizə və ənənələrimizə bağlılıqdan irəli gəlirsə, digər tərəfdən yaradılmış güclü maddi-texniki baza və idmana göstərilən yüksək dövlət qayğısı ilə əlaqədardır. Buna görə də Azərbaycan güləşçiləri ilə yanaşı, muxtar respublika güləşçiləri də beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında böyük uğurlar qazanırlar. Sərbəst güləş üzrə muxtar respublika birinciliyi də fəal idman mübarizəsi şəraitində keçəcək, idmançılar yüksək əzmkarlıq nümayiş etdirəcəklər.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov idmanın inkişafına göstərdiyi diqqət və qayğıya görə bütün idmançılar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmiş, yeniyetmələr arasında keçirilən “Heydər Əliyev kuboku” uğrunda sərbəst güləş üzrə muxtar respublika birinciliyini açıq elan etmişdir.

Sonra yarışlara start verilmişdir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi birincilikdə 100-dən çox pəhləvan 10 çəki dərəcəsində mübarizə aparacaqlar. I, II və III yerləri tutmuş idmançılar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən diplomlarla və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası tərəfindən kubok və hədiyyələrlə mükafatlandırılacaqlar.

**“Şərq qapısı”**

# “Yaradıcı əllər” festivalı başa çatıb

## *Bu tədbir turizmin inkişafına, milli dəyərlərimizin və milli mətbəximizin təbliğinə öz töhfəsini verdi*

***Xəbər verdiyimiz kimi, may ayının 5-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Yaradıcı əllər” festivalının açılışı olub.***





Festivalın keçirilməsində əsas məqsəd peşəkar sənətkarların, həvəskar şəxslərin, həmçinin evdar qadınların bacarığının üzə çıxarılması və ictimaiyyətə çatdırılması, insanların təxəyyülündə Azərbaycançılıq ideyasının möhkəmləndirilməsi, ailələrdə milli dəyərlərin və adət-ənənələrin qorunub saxlanılması və formalaşdırılması, milli mətbəx ənənələrinin gənclərə aşılanması, bacarıqlı sənətkarların özünüməşğulluğunun təmin edilməsi, muxtar respublikamızın turizm məkanlarını və turizm potensialını tanıtmaq idi. İki gün davam edən festivalın sonunda milli yeməklər, şirniyyatlar və əl işləri (o cümlədən toxuma, tikmə, dekorativ iş, rəsm əsərləri nominasiyaları) üzrə müsabiqə qaliblərinin mükafatlandırma mərasimi oldu. Mükafatlandırma mərasimindən əvvəl burada nümayiş etdirilən əl işləri ilə tanış olduq, el sənətkarlarının, sərgiyə gələnlərin fikirlərini öyrəndik.

Qeyd edək ki, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələri, ümumtəhsil məktəblərinin şagirdləri, sahibkarlar, müxtəlif idarə və təşkilatların, ictimaiyyətin nümayəndələri sərgiyə böyük maraq göstərirdilər. İstedadlı şəxslər, sənətkarlar, muxtar respublikada fəaliyyət göstərən ictimai iaşə obyektləri tərəfindən hazırlanıb nümayiş etdirilən əl işlərinin – dekorativ-tətbiqi sənət, tikmə, toxuma nümunələrinin, rəsm əsərlərinin, xalçaların, milli yeməklərin, şirniyyatların, şərbətlərin sərgi-satışı təşkil edildiyi festivalda rayon (şəhər) Mədəniyyət və Turizm şöbələrinin folklor kollektivləri, Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblı və muğam studiyası, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs ansamblı və “Gənclik” Xalq Teatrının çıxışları böyük maraqla qarşılandı.

Festival iştirakçısı Sədi Məmmədov bildirdi ki, ailəsi ilə birlikdə bu tədbirdə iştirak edir. Burada hər rayondan gələn musiqi kollektivlərinin çıxışları onların böyük marağına səbəb olub.

Naxçıvan Doğum Mərkəzinin həkim-laborantı Zəminə Bayramovanın dediklərindən:

– Bu festivalda ən çox diqqətimi çəkən Naxçıvan mətbəxi haqqında danışmaq istəyirəm. Biz burada bir daha mətbəximizin nə qədər zəngin olduğunu gördük. Ən maraqlı cəhət odur ki, milli yeməklər hazırlanarkən qədim üsullarla yanaşı, müasir kulinariya tələbləri də nəzərə alınmış, yerli məhsullardan geniş istifadə olunmuşdu. Yaxşı hal kimi qeyd edək ki, burada yeməklərin satışı da təşkil edilmişdi. Buradan Naxçıvan mətbəxinin dadlı-ləzzətli taamlarından olan Ordubad qayğanağını aldım.

Festivalda ən çox diqqətçəkən məqamlardan biri Sədərək rayonundan olan Mehparə Seyidovanın hazırladığı müxtəlif şərbətlər idi. O, festival iştirakçılarına şərbətlərin faydalarını izah etdi. Bildirdi ki, gül şərbəti qaraciyər üçün çox faydalıdır. Limon şərbəti isə ürəkbulanmasının, susuzluq hallarının aradan qaldırılması üçün olduqca əhəmiyyətlidir.

Yuxarıda da qeyd etdiyimiz kimi, festivalın keçirilməsi muxtar respublikamızın turizm məkanlarını və turizm potensialını tanıtmaq baxımından da böyük əhəmiyyətə malikdir. Elə bunu şəhərimizin əcnəbi qonaqları ilə söhbətimdə də hiss etdim. Cəmilə Tuli deyir:

– Mən İran İslam Respublikasının Tehran şəhərindənəm. Naxçıvana ilk dəfədir, gəlirəm. Dünəndən festivalda iştirak edirik. Burada videoçəkilişlər apardıq. İstəyirəm ki, burada gördüklərimizi orada qohumlarımıza, tanışlarımıza göstərək. Çünki, həqiqətən, Naxçıvanda gördüklərimiz bizi çox heyrətləndirdi. Naxçıvanın zəngin ənənələri var. Mənə ən çox təsir bağışlayan isə sağlamlıq imkanları məhdud insanların əl işlərinin sərgisinin təşkil olunmasıdır. Burada belə insanlara qayğı bizi çox duyğulandırdı.

Qaliblərin mükafatlandırılması mərasimində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirdi ki, muxtar respublikamızda həm milli dəyərlərimizin qorunmasına, istedadlı insanların üzə çıxarılmasına və tanıdılmasına, həm də turizm potensialının təbliğinə böyük dəstək göstərilir. Təsadüfi deyil ki, “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli Sərəncamı imzalanmış, 2012-ci il Naxçıvan Muxtar Respublikasında “Milli dəyərlər ili” elan edilmişdir. “Milli dəyərlər ili” çərçivəsində beynəlxalq rəsm, folklor, muğam və xalq teatrları festivalları, yaradıcılıq təşkilatları üzrə müsabiqələr, istedadlı qadınların sərgi-satışları təşkil olunmuşdur. Bu dövrdə Ali Məclis Sədrinin qayğısı ilə “Naxçıvan milli geyimləri”, “Naxçıvan tikmələri”, “Naxçıvan mətbəxi”, “Naxçıvan xalçaçıları”, “Müasir Naxçıvan sənətkarları” kitabları, “Azərbaycan xalçaları: Naxçıvan qrupu” jurnalı yüksək tərtibatla çap edilmişdir. Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı və sənəti ilə məşğul olan şəxslərin iş şəraitinin yaxşılaşdırılması, onlara lazımi köməkliklərin göstərilməsi, muxtar respublikanın bölgələrində xalq sənətinin müxtəlif sahələri ilə məşğul olan sənətkarların əl işlərindən ibarət satış-sərgilərin təşkili məqsədilə müvafiq qurumlarla qarşılıqlı fəaliyyət təmin edilmiş, ötən ilin noyabrında “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində xalq yaradıcılığı sərgisi keçirilmişdir.

Vurğulanmışdır ki, cari ilin mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə regionumuzun turizm obyektlərinin tanıdılması da qarşıya vəzifə olaraq qoyulmuşdur. Bu mənada, may ayının 5-6-da keçirilən “Yaradıcı əllər” festivalı “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin tanıdılmasında böyük əhəmiyyət kəsb edir.

Ramilə Seyidova turizmin inkişafına, milli dəyərlərimizin və milli mətbəximizin təbliğinə yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə təşkilatçılar və festival iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını ifadə etmişdir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva çıxışında qeyd etmişdir ki, yaradılan şəraitin nəticəsində muxtar respublikada istedadlı rəssamların sayı ildən-ilə artmış, onların əl işlərindən ibarət sərgilərin təşkili ənənə halını almışdır. Bugünkü festivalda nümayiş etdirilən rəsm əsərlərinin müəllifləri yaradılan şəraitdən bəhrələnərək bundan sonra da öz əsərlərində Naxçıvanın qədim tarixini və müasir inkişafını tərənnüm edəcəklər.

“Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzinin direktoru Türkay Səfərzadə bildirmişdir ki, yurdumuzun hər bir regionunun öz adət-ənənələri olduğu kimi, Naxçıvanın da özünəməxsus ləziz yemək növlərindən ibarət mətbəx mədəniyyəti vardır. Burada süfrə mədəniyyəti hər zaman ən yüksək səviyyədə qorunub saxlanılmışdır. Naxçıvan mətbəxinin zəngin mənzərəsi muxtar respublikamızda kulinariya turizminin inkişafı üçün də gözəl zəmin yaradır.

Mərasimdə məlumat verilmişdir ki, “Əl işləri” müsabiqəsinə 80 istedadlı qadın və sənətkarların 410 adda dekorativ, toxuma, tikmə, ağac üzərində oyma və yandırma, mis üzərində döymə, rəsm əsərləri, “Milli yeməklər” müsabiqəsinə 11 müəssisənin onlarla çeşiddə milli yeməkləri, “Şirniyyatlar” müsabiqəsinə 85 nəfər qadın tərəfindən 205 çeşiddə, 12 şirniyyat müəssisəsinin 82 çeşiddə yüzlərlə şirniyyat nümunəsi təqdim olunmuşdur.

Müsabiqə qaliblərinə (8 nəfər I yer, 8 nəfər II yer, 8 nəfər III yer) təşkilatçılar tərəfindən diplom və hədiyyələr verilmişdir.

“Əl işləri” müsabiqəsi üzrə birinci yerin qalibi olmuş Fizzə Quliyevanın təəssüratlarını öyrəndik:

– Sevincimin həddi-hüdudu yoxdur. Bu gün burada mənim əl işlərimə yüksək qiymət verildi. Muxtar respublikada xalq yaradıcılıq sənətinin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi, adət-ənənələrin yaşadılmasında az da olsa, mənim də əməyimin olması qürurvericidir. Mən festivalda müxtəlif rəsm əsərləri ilə iştirak etdim. Belə tədbirlər biz yaradıcı insanları daha yaxşı işləməyə ruhlandırır.

“Şirniyyat” müsabiqəsi üzrə birinci yerin sahibi Sona İmaməliyeva:

– Əvvəllər hazırladığımız şirniyyatları üzə çıxarmaqda çətinliklər çəkirdik. Lakin bu gün Naxçıvanda istedadlar üzə çıxarılır, el sənətkarlarının fəaliyyətinə böyük dəstək verilir, onların əl işlərindən ibarət sərgilər təşkil olunur, xalq yaradıcılığı sahələri ilə məşğul olan insanlara hərtərəfli qayğı göstərilir. Bu isə bizi daha da səylə çalışmağa, Naxçıvan mətbəxinə yeni həyat verməyə ruhlandırır.

*Beləliklə, “Yaradıcı əllər” festivalı iştirakçıların yüksək təəssüratı ilə başa çatdı.*

**Sara ƏZİMOVA**



*Şuşa şəhərinin əsası 1756-cı ildə Azərbaycan feodal dövləti olan Qarabağ xanlığının başçısı Pənahəli xan Cavanşir tərəfindən qoyulmuş, Pənahəli xanın şərəfinə "Pənahabad", şiş uclu dağların əhatəsində yerləşdiyi üçün bir müddət "Şişə", sonra isə "Şuşa" adlandırılmışdır.*

# Şuşamızın işğaldan azad olunmasına az qalıb

Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalına qədər Şuşa şəhəri Azərbaycanın Qarabağ xanlığının iqamətgahı və xanlığın inzibati mərkəzi olmuşdur. Rusiyaya güclü Qarabağ xanlığı sərf etmirdi və çar məmurları xanlığı zəiflətmək üçün bütün imkanlardan istifadə edirdilər. Bu imkan isə Azərbaycana və onun ayrılmaz tərkib hissəsi olan Qarabağa, Şuşaya ermənilərin köçürülməsi idi. Ermənilərin xislətinə və psixologiyasına yaxşı bələd olan, onlardan gələcəkdə də özlərinin geosiyasi maraqları üçün istifadə etmək məqsədilə çar Rusiyası Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa erməni ailələri köçürməyə başlamışdır. 1832-ci ildə azərbaycanlılar Qarabağ əhalisinin 91 faizini təşkil edirdisə, köçürmə siyasəti nəticəsində bu, 64,8 faizə enmişdi.

1805-ci il may ayının 14-də imzalanan Kürəkçay müqaviləsinə əsasən, Şuşa qalasında rus qoşun dəstələri yerləşdirilmiş, 1822-ci ildə Qarabağ xanlığı ləğv edilmiş, əvəzində eyniadlı əyalət yaradılmış və 1840-cı il islahatı ilə "Qarabağ əyaləti" yerində yaradılan və Kaspi (Xəzər) vilayətinə daxil edilən "Şuşa qəzası" 1868-ci ildən Yelizavetpol (Gəncə) quberniyasına verilmişdir. Bu vəziyyət Azərbaycan sovetləşənə qədər davam etmişdir. Bu cür parçalanmalar, inzibati ərazi bölgüsünün kobudcasına pozulması isə, ümumilikdə, ermənilərin Azərbaycana qarşı gələcəkdə irəli sürəcəkləri ərazi iddiaları üçün zəmin hazırlamışdır.

Şuşa XX əsrdə üç dəfə erməni hücumuna məruz qalmış, şəhər birinci dəfə 1905-1907-ci illərdə ermənilər tərəfindən törədilən qanlı qırğınların şahidi olmuşdur. 1920-ci ildə də şəhərin bir hissəsi ermənilər tərəfindən yerlə yeksan edilmişdir.

Sovet hakimiyyəti illərində ermənilər tərəfindən Şuşadakı tarixi mədəniyyət abidələrimiz dağıdılmış, laqeydlik Şuşanın iqtisadi baxımdan tənəzzülü ilə nəticələnmişdir. Şuşa şəhərinin yenidən dirçəldilməsi yalnız 1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra mümkün olmuşdur. Məhz ulu öndərimizin təşəbbüsü ilə şəhərin tarixi-memarlıq abidələrinin dağıdılmasının qarşısını almaq üçün tədbirlər görülmüş, 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etmişdir. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün də xeyli iş görülmüş, ölkədə tar, kamança, ud, nağara və digər milli musiqi alətlərini istehsal edən yeganə Şərq Milli Musiqi Alətləri Fabriki istifadəyə verilmiş, Azərbaycan mədəniyyətinin və incəsənətinin korifeyləri olan Ü.Hacıbəylinin, Bülbülün, X.Natəvanın, M.M.Nəvvabın ev-muzeyləri təşkil olunmuş, 1982-ci ilin yanvarında M.P.Vaqifin məqbərəsi açılmışdır.

Sovet hakimiyyəti dövründə Dağlıq Qarabağ məsələsi bir neçə dəfə qaldırılsa da, ermənilər və onların himayədarları məqsədlərinə nail ola bilməmişdilər. Odur ki, onlar müəyyən tarixi məqam gözləməyə məcbur olmuş, XX əsrin 80-ci illərinin sonunda SSRİ hökuməti, xüsusilə onun başında duranların Azərbaycan torpaqlarına açıq-aşkar təcavüz edən ermənilərə himayədarlıq etməsi üzündən hadisələr getdikcə daha da mürəkkəbləşmiş, Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi təcavüzə başlamışdır. 1989-cu il avqustun 13-də ermənilər Şuşaya gələn su kəmərini partlatmış, ayın 17-də Əsgəranda Şuşa-Ağdam marşrutu üzrə işləyən avtobusa hücum edilmiş, avqustun 28-də isə Şuşadan Bakıya, Ağdama və respublikanın digər rayonlarına gedən 9 avtobus və 1 yük maşını karvanı ermənilər tərəfindən atəşə tutulmuşdur. Həmin il oktyabrın axırı, noyabrın əvvəllərində isə Şuşa yaxınlığında Ağa körpüsünün ermənilər tərəfindən partladılması nəticəsində Şuşanın ətraf rayonlarla əlaqəsi kəsilmiş və şəhər blokada vəziyyətinə düşmüşdür.

1991-ci ilin iyun-dekabr aylarında erməni silahlı qüvvələrinin Xocavəndin Qaradağlı və Əsgəran rayonunun Meşəli kəndinə hücumu nəticəsində 12 azərbaycanlı öldürülmüş, 15-i isə yaralanmışdır. Şuşa-Cəmilli, Şuşa-Mingəçevir, Ağdam-Xocavənd, Ağdam-Qaradağlı və Ağdam-Şuşa, Laçın-Şuşa avtobuslarının erməni silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində 17 nəfər həlak olmuş, 90 nəfərə qədər azərbaycanlı yaralanmışdır. Şuşanın Xankəndidən keçən telefon-rabitə xətləri noyabrın 24-dən kəsilmiş, şəhər və digər azərbaycanlılar yaşayan kəndlər tamamilə ətraf aləmdən təcrid olunmuşdur.

1992-ci il mart ayının sonu, aprelin əvvəllərindən başlayaraq Şuşa yaxınlığında ermənilərin zirehli texnikası, saysız-hesabsız canlı qüvvəsi toplanırdı. May ayının 7-dən 8-nə keçən gecə Şuşa dörd tərəfdən "qrad", "kristal" tipli raketlər, top, tank, PDM, ZDM, pulemyot və avtomatlarla güclü atəşə tutulmuş, atəş səhərə qədər davam etmişdir. Şəhər ayın 8-i axşama qədər müdafiə olunsa da, tank və zirehli maşınların köməyi ilə ermənilər əvvəl Şuşa şəhərini, sonra isə Kosalar və Şırlan kəndlərini ələ keçirmişlər. Beləliklə, ən müasir texnika hesabına 289 kvadratkilometr ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, qanlı döyüşlərdə 195 azərbaycanlı şəhid olmuş, 165 nəfər yaralanmış, 58 nəfər isə girov götürülmüşdür. Ermənilər tərəfindən əsir götürülmüş 114 nəfər azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirilmişdir. İşğal nəticəsində Şuşanın 20 kitabxanası, 12 klubu, 6 mədəniyyət evi, 22 məktəbi, 7 uşaq bağçası yandırılmış və dağıdılmışdır. İşğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Son Tunc və İlk Dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutu qəbirləri, Daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə aid Şuşa qalasının divarları, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, Molla Pənah Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, ikimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin evi, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və sair tarixi mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən talan edilmiş və dağıdılmışdır.

Bir vaxtlar "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, görkəmli mədəniyyət xadimləri yetişdirən, Azərbaycan tarixini özündə yaşadan Şuşa hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Bəli, 24 il bundan öncə erməni terror qruplaşmaları tərəfindən beynəlxalq hüquqa zidd olaraq Azərbaycanın tarixi-mədəni və strateji əhəmiyyətli bölgəsi olan Şuşa şəhəri işğal edilmişdir və hələ də bu işğal davam etməkdədir. Ermənilər tərəfindən Xocalıda 1992-ci ilin 26 fevralında həyata keçirilən vəhşiliklər eynilə 8 may 1992-ci ildə Şuşada da davam etdirilmişdir. Şuşadakı azərbaycanlı izləri silinməkdə və Şuşanın tarixi yox edilməkdədir. Tam əminliklə demək olar ki, tezliklə Şuşa geri qaytarılacaq və oranın yerli insanları öz dədə-baba torpaqlarına geri qayıdacaqlar. O gün uzaqda deyil. Şuşada dağıdılan məscidlərdən yenidən azan səsləri yüksələcək, məhəllələr, küçələr, evlər abadlaşdırılacaq, şəhər yenidən inşa ediləcək. Azərbaycan bu istiqamətdə həm siyasi, həm ideoloji, həm də hərbi hazırlıqlarını davam etdirir. Ordumuzun sonuncu hərbi əməliyyatları qələbə günününün çox yaxında olduğunu göstərdi. Aprel ayının əvvəlindəki dördgünlük müharibədə Azərbaycan ordusu çox böyük şücaət sərgilədi. Qarabağda gedən döyüşlər cəmi bir neçə gün çəksə də, Azərbaycan xalqı üçün əsl sınaq, mübarizlik, birlik imtahanı oldu və əminliklə deyə bilərik ki, bu imtahandan üzüağ çıxdıq. İtkilərimiz, yaralılarımız olsa da, rəşadətli, igid əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində Azərbaycan çoxdandır ki, arzusunda olduğu, yaşamaq istədiyi bir hissi – QƏLƏBƏ hissini daddı. İgid döyüşçülərimiz neçə illərdir ki, düşmən tapdağı altında qalan, bizi haraya, qisasa səsləyən torpaqlarımızın bir hissəsini azad etdilər və üçrəngli bayrağımızı orada dalğalandırdılar. Bu, bizim tezliklə Qarabağda, Şuşada da Azərbaycanımızın şanlı bayrağının dalğalanacağına ümidimizi daha da artırdı. Baş verən son hadisələr həm də bütün dünyaya bizim necə böyük bir XALQ olduğumuzu göstərdi. Ermənilər ordumuzun zərbələrinə tab gətirməyib silah-sursatlarını qoyub qaçmağa başladıqları halda, on minlərlə igid oğul və qızlarımız Vətən uğrunda canlarından keçmək üçün cəbhə bölgələrinə can atdı. Düşmən başa düşdü ki, Azərbaycan torpaqlarını zorla işğal edib saxlamaq mümkün deyil. Azərbaycan heç vaxt torpaqlarının işğalı ilə razılaşmayacaq, tökülən qanlar yerdə qalmayacaq.

*İndi şuşalılar Azərbaycanın 55 rayonunda müvəqqəti məskunlaşmışlar. Bu müvəqqəti müddətin sonuna elə də çox qalmayıb. Bu gün şuşalılar Qarabağa – Şuşaya qayıdacaqlarından əmindirlər. Bu əminlik Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətindən, beynəlxalq aləmdə artan nüfuzundan, ən əsası Azərbaycan Prezidenti cənab İlham Əliyevin Şuşada və Xankəndidə Azərbaycan bayrağının dalğalanması uğrunda apardığı əzmkar siyasətdən, ölkənin Ali şəxsinin ali bəyanatlarından doğur:* ***"Bizim bayrağımız bu gün işğal edilmiş torpaqlarda qaldırılmalıdır və qaldırılacaq. Şuşada, Xankəndidə bizim milli bayrağımız dalğalanmalıdır və dalğalanacaq. Bu günü biz hamımız yaxınlaşdırmalıyıq, bu günə biz hamımız nail olacağıq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və Azərbaycan dövləti bundan sonra da ancaq və ancaq inkişaf və tərəqqi yolu ilə gedəcək".***

**Səbuhi HÜSEYNOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin aprel ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 985008 | 98501 | 98839 | 100,3 |
| 2. | Kəngərli rayonu | 687920 | 68792 | 69006 | 100,3 |
| 3. | Şərur rayonu | 1579274 | 157927 | 158328 | 100,3 |
| 4. | Sədərək rayonu | 200711 | 20071 | 20111 | 100,2 |
| 5. | Şahbuz rayonu | 630720 | 63072 | 63172 | 100,2 |
| 6. | Culfa rayonu | 863875 | 86388 | 86487 | 100,1 |
| 7. | Babək rayonu | 1659870 | 165987 | 166097 | 100,1 |
| 8. | Naxçıvan şəhəri | 1876304 | 187630 | 187691 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 6001029 | 599673 | 638246 | 106,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **14484711** | **1448041** | **1487977** | **102,8** |

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Azərbaycan kinosu günü" layihəsi çərçivəsində Naxçıvan Dövlət Film Fondu "Əbədi ezamiyyət" sənədli filmini Şahbuz şəhərindəki "Araz" kinoteatrında nümayiş etdirib.*

## Şahbuzda *"Əbədi ezamiyyət"* sənədli filmi nümayiş etdirilib

Qeyd edək ki, bu sənədli film Heydər Əliyev Fondunun dəstəyi, layihə rəhbəri Arzu Əliyevanın baş prodüserliyi ilə Bakı Media Mərkəzi tərəfindən hazırlanıb. Filmin ssenari müəllifi Müsəllim Həsənov, quruluşçu rejissoru Fariz Əhmədov, quruluşçu operatoru Rəşad Nuriyev və filmin məsləhətçisi, həmçinin baş rolun ifaçısı Tahir Əliyevdir.

"Əbədi ezamiyyət" filmi 1919-cu ilin yanvarında Azərbaycan Xalq Cümhuriyyətinin parlament sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris Sülh Konfransına ezam edilmiş nümayəndə heyəti üzvlərinin milli dövlətçilik ideyaları uğrunda apardıqları mübarizədən, onların keşməkeşli taleyindən və qürbətdə bitən ömür yolundan bəhs edir. Yaradıcı heyət filmin hazırlanması üçün il yarım müddətində Bakı, Tbilisi, Moskva, Sankt-Peterburq və Paris şəhərlərindəki arxivlərdə araşdırmalar aparıb, bu şəhərlərdə video və fotoçəkilişlər edib. Fransada Azərbaycan mühacirəti ilə bağlı tədqiqat aparan alimlərlə görüşlər və söhbətlər də lentə alınıb.

Film tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

***İtmişdir***

Naxçıvan şəhəri, Vüqar Qasımov küçəsi, ev 9-da yaşayan Hüseynova Vüsalə Fərman qızının adına olan MH-0036124 seriya nömrəli dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 360